Özgün Araştırma

*Mammadova, A. (2019), Siyavuş Kerimi`nin sensizlik ağrısı şarkısının ton ve metin özellikleri, Rast Müzikoloji Dergisi, 7(1), s.2009-2018. Doi:https://doi.org/10.12975/pp2009-2018*

# Siyavuş Kerimi`nin sensizlik ağrısı şarkısının ton ve metin özellikleri

Aynura Mammadova

Corresponding author:

Azerbaycan Milli Konservatuarı ümumi piyano bölümü öğretmen. aynurmammadova320@gmail.com
https://orcid.org/0000-0002-6062-040X

## Özet
Meqalede bestekar Siyavuş Keriminin mahnı yaradıcılığından behs olunur. Mahnı janrı onun yaradıcılığının müsteqil ve esas sahesidir. Xüsusile lirik mahnılar bestekarın musiqi dünyasının esas göstericileridir. S.Keriminin İsmayıl Dadaşovun sözlerine yazılmış “Sensizlik ağrısı” mahnısının ton ve metn xüsusiyyetleri açıqlanmışdır. Söylemek lazımdır ki, mahnının poetik dayağını teşkil eden şeir şekli müxtelif növlü heca sayı olan setirlerden ibaretdir. Bele bir şeir ölçüsü melodik quruluşa geniş ve inkişaf etmiş xüsusiyyet qazandırmaqdadır. Bestekarın mahnı yaradıcılığında ehemiyyetli yer alan lirik mahnılarla yanaşı, Azerbaycan variasion musiqisinde xüsusi ehemiyyet daşıyan lirik-vetenperverlik mahnı növünün de iştirak etmesi vacibdir. Esl lirik mahnıları vasitesiyle bestekar müasir Azerbaycan variasion musiqisinin inkişafına ehemiyyetli derecede behreler vermişdir. Meqalede onun yaradıcılıq biyoqrafisini araşdırmış olduqdan, professional fealiyyetinin bir neçe istiqametini tesdiqleye bilerik: ifaçılıq, bestekarlıq, elmi ve tehsil fealiyyeti, rektorluq ve işıqlandırma, musiqi-ictimai fealiyyet ve benzeri. Bu yazıda bir bestekar kimi onun mahnı yaradıcılığı araşdırılmaqdadır.

## Anahtar kelimeler
*bestekar, mahnı, musiqi, analiz, şiir*

Azerbaycan Respublikasının Xalq artisti, görkemli musiqi xadimi, professor Siyavuş Kerimi professional musiqiçi fealiyyetine XX esrin 70-ci illerinde qedem qoymuşdur. Senet ve yaradıcılıq yolunun tekamül ve inkişaf prosesleri daim yükselen xett üzre baş vermişdir. Onun yaradıcılıq bioqrafiyasını araşdırdıqda, professional fealliyyetinin bir neçe istiqametini müeyyen etmek olar: ifaçılıq, bestekarlıq, elmi ve pedaqoji fealiyyet, rektorluq ve maarifçilik, musiq-ictimai fealiyyet ve s. Bu meqalede bir bestekar kimi onun mahnı yaradıcılığı tehlile celb olunur. Siyavuş Kerimi bir sıra teatr tamaşalarına yazdığı musiqisi ile müasir Azerbaycan teatr senetinin inkişafına öz töhfesini vermişdir (Mammadova A, 2019, 46). Siyavuş Keriminin mahnıları müasir Azerbaycan musiqi medeniyyetinde özünemexsus yer tutur. Demek olar ki, onun her bir mahnısı ilk seslendiyi günden dinleyici qelbine yol tapa bilmişdir. Musiqi medeniyyetimizin tacıdır, heyatımızın ayrılmaz bir hissesidir... Çünki musiqiçiler ele bir senetle, ele bir elmle, felsefe ile meşğuldurlar ki, onun tercümeye ehtiyacı yoxdur. Musiqinin insanı bir haldan diger hala salmaq qüdreti var. Musiqi bizi daim, her yerde müşayiet eden amildir. Her bir insan musiqi sedaları altında işlemeyi, sesi olsa da, olmasa da, öz-özüne zümzüme etmeyi xoşlayır (Ferzeliyeva Ü. 2011, 2). Buna ilk növbede, mahnıların musiqi dilinin milli menbelerle sıx bağlı olması imkan verir. Hemçinin, bestekarın her bir

mahnını orijinal aranjeman etmesi de ehemiyyetli rol oynayır. Onların dinleyici terefinden sevilmesinin diger bir sebebi de çoxunun lirik xarakter daşımasıdır. Azerbaycan estrada musiqisinin zengin eneneleri üzerinde yetişen S.Keriminin mahnıları özünün ifade vasitelerinin gözelliyi ve zenginliyi, professionallığı, milli musiqi menbelerile bağlılığı, lirik obrazlılığı, melodik özünemexsusluğu ile seçilerek Azerbaycan estrada musiqisinin inkişafında xüsusi merhele teşkil edir. Siyavuş Keriminin professional bestekar kimi fealiyyete başlaması tekce ferdi yaradıcılıq bioqrafiyasının mentiqi davamı deyildi. Onun bestekar yaradıcılığı böyük istedadının ve zengin yaradıcılıq tecrübesinin mehsulu kimi teşekkür tapmışdır (Mammadova A. 2018, 77).

S.Keriminin mahnıları onun yaradıcılığının müsteqil ve esas sahesini teşkil edir. Xüsusile, lirik mahnılar bestekarın musiqi aleminin esas göstericisidir. Lirik mahnılarında bestekar bütün daxili menevi alemini, düşüncelerini, zerif, ince poetik hisslerini, hemçinin, dramatik-ekspressiv gerginliyi aşılaya bilmişdir. Bestekarın mahnı yaradıcılığında mühüm yer tutan lirik mahnılarla yanaşı, Azerbaycan estrada musiqisinde xüsusi ehemiyyet kesb eden lirik-patriotik mahnı janrının da özüne yer alması önemlidir. Mehz lirik mahnıları vasitesile bestekar müasir Azerbaycan estrada musqisinin inkişafına ehemiyyetli derecede tövhe vermişdir. S.Keriminin mahnılarının melodiyası öz oxuculuğu ile diqqeti celb edir. Mahnıların melodik teşkilinde söze, onun menasına böyük ehemiyyet veren bestekar söz ve musiqinin vehdetine böyük bacarıqla nail olur. Mehz bu sebebden onun mahnılarında deyilen her bir söz ifadeli intonasiyalarla birge daha da tesirli seslenir. Görünür, mehz bu sebebden mahnıların melodikasında danışıq-deklomasiya başlanğıcının üstünlüyünü şertlendirir. Bununla bele, mahnılarda milli kolorit, xalq musiqi menbelerle bağlılıq onlarım çox oxucu ve axıcı ifa terzini qoruyub saxlayır.

Siyavuş Kerimi mahnılarını müasir Azerbaycan şairlerinin (Resul Rza, Cabir Novruz, İsmayıl Dadaşov, Selim Heqqi, Nahid Hacızade ve b.) sözlerine bestelemişdir.

Onun mahnılarını mövzu dairesine göre bir neçe qrupa bölmek olar:

1. Sevgi-mehebbet mövzusu ("Ömrümün isteyi", "Seni röyalarda axtaracağam", "Sensizlemişem","Sensizlik ağrısı", "Gel,gel,gel, gözelim" ve s.)
2. Patriotik mövzulu. ("Qarabağ", "Şuşam menim", "Ana torpaq", "Dinle dünya", "Fexr edir oğlunla" ve s.)
3. Müxtelif mövzulu ("Ötüşür zaman", "İller", "Tezadlar", "Möcüzeler adası", "Bayram axşamı" ve s.)
4. Himn-mahnılar.

Bestekarın mahnı yaradıcılığında milli menbelerle bağlılıq janrın qarşısında geniş imkanlar açırdı. Xüsusile, yuxarıda qeyd olunduğu kimi, dinamikliyi, formanın açıqlığının, ladintonasiya dilinin ifadeliliyini, ritmin zenginliyini temin edirdi. Bütün bunların müxtelif musiqi üslubları ile (caz, rok) sintezi maraqlı intonasiya qarışığı elde edirdi. Lakin bütün bunlara baxmayaraq, bestekarın qarşısında duran başlıca vezife milli özünemexsusluğun qorunub saxlanmasıdır. Mehz bu baxımdan Siyavuş Kerimi öz mahnıları ile Azerbaycan milli estrada musiqisi enenelerinin layiqli davamçısı kimi çıxış edir. Belelikle, XX esrin sonlarından etibaren S.Keriminin mahnıları ile müasir Azerbaycan estrada musiqisine öz ferdi üslubu ile seçilen yeni nefes gelir. Bu, görkemli, istedadlı bestekar ve ifaçıların sıx emekdaşlığı ve birliyi sayesinde mümkünleşir.Onun yüksek bedii deyere malik olan mahnıları bir çox ifaçıların- halhazırda ABŞ-da çalışan ve 80-ci illerde Azerbaycan

etrada sehnesinde populyarlıq qazınmış Firengiz Rehimbeyovanın, Xalq artistleri Azer Zeynalovun, Nazperi Dosteliyevanın, İlqar Muradovun ve diger müğennilerin repertuarını bezeyerek müasir estrada musiqimizin inkişafına tekan vermiş ve onların her biri mahnılara öz möhrünü vurmuşdur.

Qeyd etnek lazımdır ki, S.Kerimi öz mahnılarını yaradarken ifaçılıq rakursunu, İfaçıların ferdiliyini de nezere alır. Maraqlıdır ki, o öz mahnılarını besteleyerken ve yaxud her hansı mahnı üzerinde çalışarken sanki onu konkret ifaçı üçün nezerde tutur. Meselen, bir silsile teşkil eden lirik mahnı qrupu ( "Sensizlemişem", "Gel, gel, gel, gözelim", "Sensizlik ağrısı") Xalq artisti Azer Zeynalovun ifasında oxucu ve melodik terzde seslenir. "Ömrümün isteyi" mahnısı ise İlqar Muradovun ifasında daha xeyalperver, danışıq intonasiyaları zengin terzde teqdim edilir. Elece de onun ifasında "Ötüşür zaman" mahnısının (sözleri İ.Dadaşova mexsusdur) danışıq -deklomasiya terzli olması tamamile müğenninin ruhuna cavab verir ve s. Bestekarın lirik mahnılarında bir qayda olaraq, qehremanın hissleri, düşünceleri, fikirleri geniş hellini tapır. Bütün bu lirik obrazlılığı, onun çalarlarını eks etdirmek üçün poetik mezmuna uyğun ifade vasitelerinden istifade olunur.Lirik mahnıların esas mövzusu - mehebbet, intizar, tenhalıq, xatireler, sevinc ve s. Mahnılarda terennüm olunan hisslerin sadeliyi ve aydınlığı, ifade vasitelerinin tebiiliyi ve semimiliyi onları çox populyar edir. Bele ki, lirik mahnıların çoxunda vahid obrazlı-emosional ahenge uyğun olan motivlerin intonasiya qohumluğu özünü gösterir. Meselen, daha çox şüşter ladına esaslanan mahnıların (S.Heqqinin sözlerine "Gel, gel, gel, gözelim", "Ömrümün isteyi" ve "Sensizlemişem", İ. Dadaşovun sözlerine "Sensizlik ağrısı", C.Novruzun sözlerine "Gecikmiş mehebbet" ve s.) nümunesinde bunu aydın görmek olar.

S.Keriminin mahnıları ne qeder müasir olsa da (müasirlik esasen caz ve rok musiqinin üslub elementlerinin, rok musiqi aletlerinin tetbiqi ile onların aranjemanında, müşayietinde daha qabarıq ifade olunmuşdur) onlarda milli kolorit daha güclüdür. Mahnıların esas aparıcı "lokomotivi" olan melodik başlanğıcda milli menbe özünü daha sabit qoruyub saxlamışdır. Mahnıların bir çoxunda Azerbaycan xalq mahnı yaradıcılığından gelen melodik quruluş tipi, inkişaf prinsipi, formateşkili müşahide olunur. Onun mahnılarınıın xalq yaradıcılığı ile bağlılığı melodik üslubda daha aydın görünür. Mahnıların derin ve menalı ferdi xarakterini bestekarın melodiyalarının xalq musiqisine, milli musiqi diline münasibeti teyin edir. Özünde müasir estrada mahnı janrının en yüksek keyfiyyetlerini toplayan mahnıların melodik menbeyi xalq mahnısının intonasiya, struktur ve kompozisiya xüsusiyyetleri müeyyenleşdirir. (Halıgzade, 1985, 20) Mehz xalq mahnı yaradıcılığının xarakterik cehetleri bestekarın öz yaradıcılığı süzgecinden keçirilerek ve müasir estrada musiqisinin xüsusiyyetleri ile sintezleşerek ve müasir poetik metnle birleşerek Siyavuş Keriminin mahnılarına özünemexsusluq verir. S.Keriminin mahnılarının çoxunun melodiyasında xalq mahnılarında müşahide olunan müeyyen bir dayaq perdenin oxunması, onun etrafında gezişme prinsipi özünü gösterir. Melum olduğu kimi, xalq mahnılarında bele gezişmelerin esas meqsedi ladın dayaq perdelerinin aparıcı funksiya daşıması ile bağlıdır.

S.Keriminin mahnıları melodik ifadeliliyi ile seçiir. Burada milli menbelerle bağlılıq onların lad esasında özünü daha aydın gösterir. Aydın lad esası ve daxili enerjisine göre Siyavuş Keriminin mahnıları böyük tesir qüvvesine malikdir.

Mahnıların melodiyası geniş diapazona malik olur. Oktava ve ondan daha geniş diapazonlu mahnılar üstünlük teşkil edir. Bestekar öz mahnılarının formateşkilinde de xalq mahnı enenelerine arxalanaraq esas prinsiplerden istifade edir. Tekrarlıq, variantlıq, sekvent inkişaf prinsipleri janrın tebierinden ireli gelen cehet kimi çıxış edir. Struktur baxımdan Siyavuş Keriminin mahnılarının çoxu kuplet-neqaret formasındadır. Bestekarın lirik mahnıları, demek olar ki,mülayim, asta templidir ki, bu da onların xarakterinden,obrazlar aleminden ireli gelen cehetdir. Bestekarın lirik mahnılarının xalq lirik mahnı janrı ile elaesi onların intonasiya quruluşunda aydın özünü gösterir: melodik xettin düzümünde, melodik dönmelerin zirveden aşağı enen hereketinde, dayaq perdelerin oxunmasında ve onlara istinad edilmesinde, sekvent inkişaf prinsipinin tetbiqinde, ladintonasiya mezmunundan ireli gelen xarakter kadans dönmelerin istifadesinde ve s.

Bununla bele, S.Keriminin mahnıları xalq mahnılarına benzemir. Bestekar mahnıların melodik teşkilinde poetik metnin obrazlı-emosional mezmunundan, struktur hecminden çıxış ederek danışıq terzine üstünlük verir. Mahnılarda istifade olunan poetik metn müxtelif hecmli heca vezninde yazılmış şeir formalarına esaslanır. Burada hem üçlük, hem dördlük, hem de serbest misralı şeir formaları bestekarın melodiyalarına qovuşaraq üzvi vehdetde çıxış edir. Mahnıların musiqi-tematik teşkilinde müşayietin fakturası da ehemiyyetli rol oynayır. Bele ki, mehz müşayietin ifadeli, yadda qalan vasitelerle teşkili obrazın, bedii ideyanın qavranılmasına tesir edir. Mahnıların hem tematik, hem de forma teşkilinde vacib ifade vasitesi olan faktura işlemesinde bestekarın ferdi üslubu özünü daha qabarıq gösterir. Mahnının esas obraz meğzinin göstericisi olan müeyyen faktura tipine (ostinat fon, polifonik seslerin hörülmesinden emele gelen çoxseslilik, unison ifa, geniş registr ehatesi ve s.) sadiq qalmasını onun hem xalq mahnı işlemelerinde, hem de öz yaradıcılıq mehsulu olan mahnılarında müşahide etmek olar. Şübhühesiz, mahnıların mena ve mezmunun çatdırılmasında müşayiet mühüm rol oynayır.

Mahnıların girişleri, xüsusile diqqeti celb edir.Burada bestekar her defe yeni tapıntısı ile maraq doğurur. Girişlerde,hemçinin , bestekarın aranjeman etme bacarığı özünü parlaq gösterir. Herbir mahnı ferqli, özünemexsus girişi, faktura işlemesi ve aranjemanı ile diqqeti celb edir. Çox vaxt giriş mövzuların tematik materialı bütün mahnının özülünü teşkil edir. Bele ki, mehz onun intonasiyalarından vokal partiyanın mövzusu doğulur. (Guliyev, 2011, 112) Bu da bütöv esere tamlıq ve bitkinlik verir. Girişin mövzusu çox vaxt vokal partiyada olduğu halda ve ya deyişdirilmiş şekilde tekrarlanır. Bu menada girişler mahnılarda ikili funksiya daşıyır. Hem bütövlükde mahnının ümumi obraz ve intonasiya mezmununu hazırlayır, diger terefden, mahnının hisseleri arasında bağlayıcı, elaqeyaradıcı funksiya daşıyaraq vehdetin, tamın yaranmasına xidmet edir. Müşayietin özünemexsus xetti vokal partiya ile üzvi suretde birleşerek, onun aparıcı rolunu daha da öne şekir. Mahnıların müşayietinde, qeyd etdiyimiz kimi, fiqurasiyalı, ritmik ostinato, burdon ostinat fon, sesaltı birleşmeler müsteqil xarakter daşıyaraq aparıcı funksiya kesb edir. Müşayietde müeyyen mena yükü daşıyan üslub qatların: caz, rok ve milli – başlanğıcın uzlaşması (meselen, "Ömrümün isteyi" mahnısında müasir ifade vasitelerile yanaşı kamançanın partiyasına muğam ifası daxil edilir) ferqli ve tezadlı xettler emele getirir. Bu, daha çox bestekarın instrumental aranjemanlarında özünü gösterir.

Mahnıların metroritmi özünemexsusluğu ile seçilir. Burada zengin ve rengareng ritmik formullara rast gelmek olar. Xüsusile, mahnıların giriş hisselerinde bestekar her bir mahnının xarakterine ve ruhuna uyğun ritmik variantlar seçir. Burada hem oynaq, temperamentli (meselen, "Sensizlemişem"), hem improvizasiya terzli, serbest veznli (" Ömrümün isteyi"), hem de müxtelif ritmik xetlerin birleşdiyi poliritmik struktura ve s. rast gelirik. Mahnıların melodiyasında poetik misraların deqiq ritmi mühüm rol oynayır. Bestekar şeirin ritmine, sözlerin ritmine hessascasına yanaşır ve melodik strukturun teşkilinde şeirin ritmik vurğularına diqqet verir ve onların musiqili frazalarda düzgün qoyuluşuna riayet edir. S.Keriminin mahnılarında istifade etdiyi ritmik formullar milli menbelerle sıx bağlıdır. O, 6/8 metroritmik formulların müxtelif variantlarından istifade etmekle mahnılarının milli özünemexsusluğunu, xüsusile, vurğulayır. Melum olduğu kimi, çox parlaq ve koloritli olan ritmoformulu ve onun müxtelif variantları Azerbaycan xalq musiqisinin xarakter musiqi elementlerinden biridir. Bundan elave, sinkopalı ritm de mahnılarda geniş tetbiq olunur. Bütün deyilenleri tesdiq etmek üçün mahnılara müraciet edek.

Diqqetelayiq haldır ki, lirik mahnıların çoxunu (Selim Heqqinin sözlerine "Gel, gel, gel, gözelim" ve "Ömrümün isteyi", İsmayıl Dadaşovun sözlerine "Sensizlik ağrısı", Cabir Novruzun sözlerine "Geçikmiş mehebbet") bestekar şüşter ladında bestelemişdir. Melumdur ki, şüşter Azerbaycan lad sisteminde qemgin, kederli ehval-ruhiyye oyadan muğamdır. Mahnıların intonasiya esası üçün bu ladın seçilmesi onların obrazlı-emosional mezmununa tamamile uyğundur. "Sensizlik ağrısı"- sevgilisinden ayrılmış, tenhalıq hesreti ile qelbi alışıb yanan aşıqın qemli elegiyası, ağısıdır. Mahnı orijinal müşayieti ile diqqeti celb edir. Xüsusile, mahnıya olan giriş olduqca maraq doğurur. Burada fakturanın çoxqatlılığı özünü gösterir. Bele ki, evvelce gitaranın ritmik fiqurasiyalı fonuna nefesli aletin sınıq xetli mövzusu, sonra ise soprano qadın sesinin vokalizi qovuşaraq müsteqil xettlerin tamda birliyini yaradır. Bele bir mürekkeb ses komplekslerinin vehdeti olduqca düşünceli ve xeyali bedii obrazı canlandırır.

Mahnının vokal partiyası girişin mövzusundan ferqli ve ona tezadlı olan intonasiya materialına esaslanır. Vokal lirikada poetik metnin bütün




Nota 1: Sensizlik ağrısı şarkısının vokal partiya giriş bölümü

ifadeli frazaları dolğun ve deqiq ifadesini tapmışdır.Mahnıının poetik metninin misralarının serbest ölçüde olması melodik misraların da qeyri-kvadratlığını töredir. Qeyd edek ki, mahnının poetik esasını teşkil eden şeir forması müxtelif heca sayı olan misralardan ibaretdir. Meselen, I ve II misralar 19 hecalı, III misra - 18 hecalı, IV ve V - 12 hecalı ve s. quruluşludur. Şübhesiz, bele bir şeir ölçüsü melodik struktura geniş ve inkişaflı xarakter qazandırır. Mahnı do şüşter tonallığında ve geniş melodik diapazonda (sol1 - lya bemol2) bestelenmişdir. Ladın en yüksek perdesinin bir neçe defe tekrarlanaraq




Nota 2: Melodik inkişaf




Nota 3: Şarkının dramaturji inkişafı




Nota 4: Lad sxemi.




Nota 5:Tamamlayıcı tonda gerarlaşma

oxunması prinsipi ile (mi-bemol) başlayıb tedricen aşağı enerek maye (do), sonra ise tamamlayıcı tonları (sol) üzerinde qerarlaşan melodik şekil çox ifadeli ve tesirli musiqi obrazı yaradır.
Qem, qüsse doğuran bele bir parlaq xarakterli mövzunun ikinci defe de tekaralanmasına (poetik metnin ikinci misrasına tesadüf edir) ehtiyac yaranır. Poetik misraların uzun ve çoxhecalı (19) olması melodik misranın da bir neçe frazadan teşkil edilmesine tekan verir. Bele ki, evvelce, yüksek mi-bemol tonundan mayeye ilk kiçik mesafeli eniş , sonra yeniden mayeden daha aşağı perdelere hereket baş verir ve nehayet, üçüncü defe tamamlayıcı tonun tesdiqi mümkün olur. Mahnının sonrakı (III poetik misraya esaslanan) melodik inkişaf xetti esasen maye perdenin etrafında dolanan ve ona istinad eden frazalardan emele gelir (Nota 2).

Lakin hemin musiqi cümlesinin ikinci defe tekrarı zamanı IV ve V poetik misraların birleşerek teqdim edilmesi (birlikde 24 hecalı misra emele gelir) onun genişlenmesine ve daha yüksek seslerin elde edilmesine, dramaturji inkişafın derinleşmesine tekan verir(Nota 3).

Mahnının kulminasiyası neqaretin hissesine düşür. Burada sol şüşter ladına, hetta, do humayuna da modulyasiya özünü gösterir. Bele bir lad-tonal deyişkenlik emosional gerginliyin, heyecanın daha da artması ile elaqedardır (Nota 4):

Evvelce, do şüşter üçün xarakter olan perdeler, xüsusen de tamamlayıcı ton (sol) zile köçürülerek oxunduqdan sonra bu perde sol şüşterin mayesine beraberleşir ve belece yeni tonal seviyye elde olunur. Lakin musiqi fikri maye perdede deyil, aşağı hereket ederek tamamlayıcı tonda (re) qerarlaşır (Nota 5).

Neqaretin mövzusu ikinci defe tekrarlandığı zaman artıq musiqi fikri bir qeder de genişlenerek, birinci defe olduğu kimi, sol şüşterin tamamlayıcı tonunda deyil, artıq evvelce do - humayunun xarakter tonunda (mi bemol), sonra ise mayenin alt aparıcı tonunda (si) qerarlaşaraq darmatik anı daha da qatılaşdırır. Bu zaman poetik metnin en tesirli ve menalı misraları, onun esas




Nota 6: Neqaretin 2. defa tekrarı

meğzi kederli ifadesini tapır (Nota 6). Neqaretin sonrakı inkişaf merhelesinde yeniden do şüştere dönüş baş verir ve mahnı tamamlayıcı tonda (sol) biterek tam kadans yaradır. Qeyd olunduğu kimi, mahnı bend-neqaret formasında bestelenmişdir:
bend: aa+bb1 neqaret: cc1+dd1

Onun ikinci bendi tekrar prinsiplidir. Bütövlükde mahnının melodik strukturunda merheleli inkişaf prinsipi, qeyri kvadratlılıq poetik metnin obrazlı mezmunu ile sıx bağlıdır.

**Sonuç**

Belelikle, aparılan tehlillerden bele bir neticeye gelebilerik ki, Siyavuş Keriminin mahnılarında musiqi ve bedii sözün imkanlarından meharetle istifade olunaraq yadda qalan, yüksek senetkarlıq keyfiyyetleri eksini tapmışdır. Onları dinledikce müellifinin özünemexsus yazı üslubuna, heç kime benzemeyen aranjeman etme bacarığına, üreye yatan musiqi diline malik olduğuna inanırsan. Mahnıların melodik ifadeliliyi, derin lirik obrazlılığı, ritmik elvanlığı ve s. yüksek bedii keyfiyyetleri Azerbaycan müasir estrada musiqisinin inkişafına tekan veren deyerli nümunedir.

**Kaynakça**

Azerbaycan halk şarkıları. I c. /Düzenleyen S.Kerimi; red.: E.Dadaşova. – B.: Önder, 2005. – 168 s.

Azerbaycan halk şarkıları. II c. /düzenleyen S.Kerimi; red.: E.Dadaşova. – B.: Önder, 2005. – 128 s.

İsmayılzade R. Azerbaycan halk şarkıları. // Azerbaycan halk müziği. Denemeler. B., Elm, 1981. s. 52-85.

Guliyev A. Azerbaycan mugamının müzik dramatürjisinde kontrastlık prensipleri. / I Uluslararası mugam festivali, Doğu-batı, 2011, 135 s.

İsmayılov M.S Azerbaycan Halk müziğinin lad özellikleri. Bilimsel notlar . seri XIII N02 (7). Б.: yayımevi.АГК, 1969. c.3-8

Halıgzade F. Azerbaycan Halk müziği ritmi. Aday tez özeti, M.: 1985. 22 c.

Mammadova A. Siyavuş Keriminin bestekar fealiyyetine bir nezer. Azerbaycan Milli Konservatoriyası dergisi. N 1, Bakı, 2018, s. 77-80

Mammadova A. Siyavuş Keriminin “Hamlet” faciesine musiqisinde esas qehremanlarin seciyyesi. Azerbaycan Milli Konservatoriyası dergisi. N 1, Bakı, 2019, s. 46-49

Ferzeliyeva Ü. (27.10.2011) Siyavuş Kerimi: «Muğam terapiyası layihesi üzerinde işleyirik. TİBB gazetesi. №19-20, s. 2

# Intonation and text specifications of Siyavush Karimi's song "pain being without you"

## Extended Abstract

One of the Famous musicians of the Republic of Azerbaijan, professor Siyavush Karimi started professional music activity in the 1970s. The evolution and development processes of his art and creativity have always acted on the rising line.

When we examine his creative biography in the article, we can define several aspects of his professional activity: performing, composing, scientific and educational activities, rectorate and enlightenment, music-social activity and etc. Especially, his musical creativity is researched in this article.

The musicals of Siyavush Karimi occupy a special place in modern Azerbaijani musical culture. We should also note that every single music he had made available to his listeners from the first day he performed. First of all, it enables music to be more dependent on national sources. At the same time, the composer's original composition of each song has an important role. Another reason for their being loved by the audience is that they are lyrical character.

The songs of Siyavush Karimi consist of the free and essential area of his creativity. In particular, lyrical songs are the main indicator of the composer's musical world. In lyric songs, the composer was able to instill his all the inner-spiritual world, thoughts, elegant, subtle emotions, as well as dramatic-expressive tension. Along with the lyrical music that plays a significant role in the composer's musical creativity, it is important to keep place the genre of lyric-patriotic music, which is also particularly important in the variety music of Azerbaijan.

The melody of the S. Kerimi's songs attracts attention with its fluency. In the melodic structure of the songs, the unity of words and music were harmonized by the composer, who attached great importance to its meaning. Therefore, every word used in his songs is even more effective with expressive tones. In any case, the main reason for this is that the melody of the song creates the advantage of the start of the sparkling speech.

Nevertheless, national color in songs, their commitment to folk musical sources keep their style of playback and fluent preform. In the Composer's song creativity, the cohesion to the national sources gave wide opportunities to the genre. Specifically, aforementioned above, it provided dynamism, uniformity of the form, expression of language (ton), rhythm richness. Specifically, as mentioned above, it was providing the dynamism, openness of form, expression of language (ton) language, rhythm richness. The synthesis of all these types of musical genres (jazz, rock) has brought an interesting tone of confusion. However, despite all this, the main task facing the composer is to preserve national originality and richness.

Thus, from the end of the 20th century, with the music of S.Karimi, can be assumed that, as a new breath of modern Azerbaijan variety music was selected by its own style. It becomes possible thanks to the strong collaboration and unity of famous, talented composers and singers. His songs of high art value, decorating the repertoire of many artists - Firangiz Rahmmbayova, currently working in the United States and gained popularity in the 80s in the field of Azerbaijan variety, people's artist

Azar Zeynalov, Nazpari Dostaliyeva, Ilgar Muradov and other singers contributed to the development of modern music of Azerbaijan and made their own songs.

The melodic structure of the Azerbaijani folk music creativity, the development principle, the organization of the form is observed in many songs. The connection of his music with folk creativity is more apparent in the melodic style. The connection of composer melodies to folk music, national music identifies the deep and important feature of the songs.

The melodic source of music that collects the highest features of the music genre is the tone, structure and musical features of folk music. The melodic source of music that collects the highest features of the music genre in the modern variety defines the tone, structure and musical features of folk music. It gives uncertainty, originality to the music of Siyavush Karimi by filtering through the composer's own creative the characteristic features of original folk music creations and synthesizing with modern varieties of music and combining with modern poetic text.

Singing a certain piece of the popular songs, the passage principle around it shows itself in the melody of most of the music of Karim. As determined, the main purpose of such passages in folk songs depends on the executive functions of the transport of style beating sound. The songs of S. Karimi are selected by melodic expression power. Here, the commitment of national resources according to the tempo shows itself more clearly. The music of Siyavush Karimi has the great impact power due to obvious genre and his internal energy. The melody of music has a wide range. Octave songs and the wider range of songs from it prevail.

The composer uses the basic principles, based on the traditions of folk music, in the organization of his musical form. Repetition, diversity, and sequence development principles are the cause of the genre requirement. From a structured perspective, most of the music of Siyavush Karimi is in the form of a clause-transplant. The composer's lyrical musics, we can note, are mild, heavy temp, which is a characteristic of their characteristic, imaginary world. The connection of the composer's lyric music with the folk lyric music genre clearly shows in their tone structure: in the order of the melodic line, in the movement of melodic turns down from the top, singing the beating voices and in reference to them, in the application of the principle of successive development and in the use of characteristic cadence returns from the tone content, and so on. From this point of view, we can conclude that, in the songs of Siyavush Karimi are reflected their high mastery characteristics which in their brains using skillfully the music and artistic vocabulary. As you listen to them, you believe that the author has his own style of writing, the ability to arrange arrangements that are not unique, and the music that is close to the heart.

The high artistic features of melodic expression of music, deep lyrical color, rhythmic tone sand etc. are a valuable example of influencing the development of modern Azerbaijani music.

## Keywords
*composer, song, music, analysis, poetry*